# Göydə üzən gəmi

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Mavi göydə süzür gəmi, hey!
Gəminin var dağ görkəmi, hey!
Ulduzlara doğru gedir,
Gedir, gedir, hey!
Gəmidəki cəsur dayı, hey!

Ağ ulduzlar dalğa-dalğa, hey!
Səpələnir sola-sağa, hey!
Təyyarəçi-kosmonavtlar
Gedir, gedir, hey!
Salam verir bizim xalqa.

Olsanız da, göylər, dərin, hey!
Şöhrətini görün Yerin, hey!
Ay ulduzlar, şahid olun,
Şahid olun, hey!
Qüdrətinə siz bu elin, hey!

# Gözəl Quba

*Mus.: Səid Rüstəmov, söz.:Mir Mehdi Seyidzadə*






Bir yanın Şahdağı, bir yanın Xəzər,
Meyvəli bağların ormana bənzər,
Səhər şəfəqləri hüsnünü bəzər.
*Nəq.:*
Sən belə deyildin əzəl, ay Quba,
Nə qədər gözəlsən, gözəl, ay Quba.

Əyir budaqları bağların barı,
Şirin almaların al, qızıl, sarı,
Bahara bənzəyir payız ayları.

Dillər əzbərisən, ellər şöhrəti,
Yetirir torpağın min bir neməti,
Səni dəyişdirib elin zəhməti.

Alışıb yananda işıqlar axşam,
Qoynunda görünür başqa ehtişam,
Sənin cəlalına heyran olmuşam.

# Gün, çıx!

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Gün, çıx, Gün, çıx!
Kəhər atı min, çıx!
Çəmənlərə ver işıq,
Gün, çıx, Gün, çıx!
Kəhər atı min, çıx!
Güllər alsın yaraşıq,
Şəfəqindən bəzənsin,
Bağçalarda sarmaşıq,
Güllər alsın yaraşıq.

Gün, çıx, Gün, çıx!
Kəhər atı min, çıx!
Qoy ağarsın təpələr,
Gün, çıx, Gün, çıx!
Kəhər atı min, çıx!
Parıldasın ləpələr,
Yuxusundan oyansın
Şirindilli körpələr,
Parıldasın ləpələr.

Gün, çıx, Gün, çıx!
Kəhər atı min, çıx!
Gedək bağa, bağçaya,
Gün, çıx, Gün, çıx!
Kəhər atı min, çıx!
Axışaq meydançaya,
Orda oynayaq, gülək.
Dönək coşqun bir çaya,
Axışaq meydançaya.

# Xəzər

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*




Xəzər, Xəzər, coşqun Xəzər,
Dalğan göyərçinə bənzər.
Səhər-axşam qucağında
Gəmi üzər, qayıq gəzər.

*Nəq.:*
Xəzər, Xəzər, coşqun Xəzər,
Dalğan göyərçinə bənzər.

Dənizçilər üzə-üzə,
Sularında gəzə-gəzə,
Doğma qardaş ellərindən
Pay gətirir hər gün bizə.

Dənizçilər bilməz tufan,
Bilməz yağış, bilməz duman,
Sənin doğma sularında
Keşik çəkir hər bir zaman.

# Kəpənəyim

*Mus.:Səid Rüstəmov söz.:Mir Mehdi Seyidzadə*






Kəpənəyim, nə qəşəngsən,
Xalların var, rəngbərəngsən.
Qanadların ipək kimi,
Sən də canlı bir çiçəksən.

*Nəq.:*
Uçma gendən, qaçma məndən,
Qon güllərə, sünbüllərə.
Uçma gendən, qaçma məndən,
Kəpənəyim, kəpənəyim.

Yerin tarla, bağça, meşə,
Yoldaşların gül, bənövşə.
Ətir yayan çəmənlərdə
Uçuşursan sən həmişə.

Atlas geyib yaşıl bağlar,
Çiçəklənib tər budaqlar.
Bağçalarda seyrə çıxıb
Dəstə-dəstə şən uşaqlar.

# Quzum

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*




Yaz gəlib, coşur sular,
Çiçəklənib arzular.
Yayılıb çölə, düzə
Körpə-körpə quzular.

Mən gəzirəm çəməndə,
Yoldaş ol mənə sən də.
Duyaq yazın ətrini
Nərgizdə, yasəməndə.

*Nəq.:*
Quzum, gəl, ay quzum, gəl,
Ay mənim yalquzum, gəl.
Sənin zərif boynuna
Zınqırovlar düzüm, gəl.

# Şaxta baba

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Keçdi dəniz, aşdı dağ,
Gəldi bizə bir qonaq.
Saqqalı qardan dümağ, hey.

*Nəq.*
Söylədik alqış baba,
Şaxta baba, qış baba.
Ay sənə alqış, baba.
Şaxta baba, qış baba.
Çöldə çıxıb qar dizə,
Yolka qonaqdır bizə,
Nəğmə deyib üz-üzə, hey, hey.

Burda verib əl-ələ,
Oynayırıq bax belə,
Səs yayılır hər elə, hey, hey.

# Şəhərimiz

*Mus.: Səid Rüstəmov, Söz.: Mir Mehdi Seyidzadə*

**Allegretto**






Yer üzündə şəhər olmaz
Bizim gözəl şəhər kimi.
Gecələri işıqlıdı
Al Günəşli səhər kimi.

*Nəq.:*
Bakı, canım Bakı,
Fəxrim, şanım Bakı!
Döyünən ürəyim,
Canım Bakı, qanım Bakı!

Abidələr qalxıb göyə
Hər meydanda, meydançada.
Gülümsəyir qərənfillər,
Qızılgüllər hər bağçada.